**Tarix və onun problemləri, №3 2009**

**ABBAS ORUCƏLİYEV**

# QARABAĞ MÜNAQİŞƏSİ GEOSİYASİ PROBLEM KİMİ

1988-ci ildən Azərbaycan ictimai- siyasi fikrində Qarabağ hadisəsi «uydurma problem», «etnik münaqişə» kimi izah olunmaqda, dünya ictimaiyyətinə də beləcə çatdırılmaqdadır. Lakin tarixi araşdırmalar göstərir ki, Qarabağ hadisəsi uydurma problem, münaqişə deyil, Şərq- Qərb, eyni zamanda dünya imperialist dövlətlərinin işğalçılıq və geosiyasi mübarizəsindən doğan bir hadisədir. Açıq və gizli formalarda yüz illərdi davam edir. Ermənilər isə bu prosesdə istifadə olunan bir alətdir.

Bu prosesi təxminən aşağıdakı kimi dövrləşdirmək olar.

Birinci mərhələdə e.ə.II-I əsrlərdə Alban (Azərbaycan) və Erməni (Ermənistan) arasındakı münasibətlər dövrü (erməni dövləti Fərat çayının qərbinə yerləşirdi. Yeri gəlmişkən qeyd edək ki, indi Ermənistan adlanan ərazi XIX əsrdə Rus imperiyası tərəfindən işğal olunub, 1828-ci il 21 martda I Nikolayın fərmanı ilə Erməni əyaləti adlandırılan ərazi Azərbaycanın Çuxursəd-İrəvan mahalı, Göyçə və Zəngəzur – Qarabağın bir hissəsidir), başqa sözlə desək, Albaniya ilə Armeniya dövlətlərinin hərbi toqquşmaları, Roma və Sasani imperiyalarının işğalçılıq müharibələri zamanı Albaniyanın məruz qaldığı təcavüzlər dövrüdür.

İkinci mərhələdə eramızın Iv əsrindən sasani və Roma imperiyalarının Zaqafqaziya və Kiçik Asiya uğrunda müstəmləkəçilik müharibələri dövrü- 387-ci ildə Ermənistan dövlətinin süqutundan sonra, həmçinin xilavət imperiyasının yaranması zamanı erməni xiristian kilsəsinin işğalçı dövlətlərin himayəsində xiristian dinini yaymaq və başqa xiristian təriqətləri qriqorianlaşdırılmaqla erməniləşdirilməsi mərhələsidir. Bu dövrün VIII-IX əsrləri Qarabağa müəyyən dərəcədə təsirli olmuşdu.

Xilafətin süqutu, Sacilər sülaləsinin başçılığı ilə (889) Azərbaycan dövlətçiliyinin bərpası, Səlcuqlar və Eldəgizlər sulaləsinin hakimiyyəti illərində Azərbaycanın hakimiyyəti Vana qədər əraziləri əhatə edir. Armeniya- «Ərməniyyə» coğrafi məfhum kimi tarix səhnəsindən silinir. Ermənilərin bölgənin etnik, siyasi, mədəni- idoloji təsiri hiss olunmayacan səviyyəyə enir.

Səlcuqların Kiçik Asiyada möhkəmlənib, Avropa Dövlətlərinin xiristian bayrağı altında Asiyaya hərbi yürüşlərinin qarşısını alması, Osmanlı imperiyasının yaranması və Şərq tranzit ticarət yollarını tam nəzarətdə saxlaması, onunla açıq savaşa cəsarət etmə Avropa dövlətlərinin Osmanlı imperiyasını daxildən zəiflətmək üçün müxtəlif üsul və vasitələr axtarmağa vadar edirdi. Nəhayət, ermənilər vasitə kimi kəşf olundu.

Avropa xiristian dövlətlərinin Osmanlı dövlətinə qarşı düşmənçilik aşılamağa nail olduğu Səfəvi sarayında hakimiyyət uğrunda mübarizədə vəliəhd Həmizə Mirzə erməni sui- qəsdi ilə öldürüldü, sonralar I Şah Abbas kimi tanınan Abbas Mirzə hakimiyyətə gətirildi.

I Şah Abbas ermənilərin Kiçik Asiyadan və başqa ərazilərdən köçüb Səfəvi imperiyası ərazisində cəmləşməsinə, onlara xüsusi güzəştlər edilməsinə şərait yaratdı. Beləliklə, ermənilər Kiçik Asiya və Səfəvi imperiyası ərazisində fəal sosial- siyasi qüvvə kimi formalaşmağa başladı. Qısa müddətdə Səfəvi imperiyasının ticarət maliyyə mənbələrini ələ keçirən ermənilər I Şah Abbasın etimadını qazanaraq, onun siyasi istiqamətlənməsində iştirak etdilər. I Şah Abbasın xarici məsələlər üzrə müşaviri Xoca Səfər erməni idi və 1608-ci ildə Avropaya elə birinci səfəri zamanı xristian dövlətlərin Şərqə yol açmaq üsulları və bunun əvəzində Səfəvi dövlətləri ərazisində Erməni dövləti yaratmaqda onlara kömək etmələri haqqında Avropa ölkələrinin bir çox dövlət adamları ilə danı-

şıqlar apardı. Tezliklə Rusiya imperiyasının himayəsini qazanan, Səfəvi dövlətinin xarici ticarət əlaqələrini və daxili maliyyə mənbələrini ələ keçirən ermənilər ölkədə maliyyə böhranı yaratmaqla Səfəvi sulaləsinin süqutunda fəallıq göstərir, Rus imperiyasının Səfəvi dövləti ərazilərini işğal etməsi üçün üsul və vasitələrinin hazırlanmasında iştirak edirdilər. Səfəvi dövlətində yaşayan ermənilər, hansı peşə sahibi olmalarından asılı olmayaraq, Avropa xristian dövlətlərinə casus kimi xidmət edirdilər. Artıq XVIII əsrdə ermənilərdən faydalanmaq uğrunda Rusiya, Fransa və İngiltərə arasında çəkişmə gedirdi. Ermənilər Osmanlı, Səfəvi və digər Şərq ölkələrinin işğalında Avropa imperialist dövlətlərinin əlində alətə çevrilmişdilər.

XVIII əsrdə Avropa diplomatiyasının hazırlayıb «Şərq məsələsi»- adlandırdığı-xristianların «müsəlmanların zülmündən azad edilməsi» üçün hərbi-siyasi plan bilavasitə ermənilərin iştirakı ilə yaradılırdı. Onun hazırlanmasında erməni siyasətçiləri o qədər səylə işləyirdilər ki, Avropa diplomatiyası «Şərq məsələsi» ni erməni məsələsi də adlandırırdı. Maraqlıdır ki, Avropada «Şərq məsələsi» hazırlananda Qafqazın müxtəlif ərazilərindən ermənilər Qarabağın hələ də Albaniya adlanan əhalisinin cüzi bir qismi xristianlığı saxlamış ərazilərinə gətirilir, burada məskunlaşdırılır, feodal hakimlər kimi möhkəmləndirilirdi. Özünü Alban adlandıran, dil və mədəniyyətcə Azərbaycan, din cəhətdən qriqorian olan, bir vahid kimi formalaşmış ölkə xalqının bu hissəsi ermənilərin təsiri ilə özlərini xristian təəsübkeşi kimi göstərən Avropa müstəmləkəçilərini müdafiə edir və digər Şərq ölkələrinin də işğalında imperialist Avropa dövlətlərinin əlində alətə çevrilirdilər.

Rusiya imperiyası Azərbaycanın işğalında xidmətə görə mükafat olaraq, dünyanın bir çox ölkələrinə, o cümlədən Osmanlı və Səfəvi imperiyalarının müxtəlif ərazilərinə səpələnmiş erməniləri Şimali Azərbaycana köçürüb İrəvan, Göyçə və Qarabağın Zəngəzur vilayətində məskunlaşdırdı. 1828-ci ildə İrəvan və Naxçıvan xanlığını ləğv edərək bu əraziyə «Erməni əyaləti» adı verir. Beləliklə, Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılmasının əsası qoyulur. Bu mərhələdə ermənilər bilavasitə Rusların təsiri altında olsa da, işğal olunmuş Azərbaycan ərazisində erməni dövləti yaradılmasında Fransa daha çox fəallıq göstərir, İngiltərə də bu işə dəstək verirdi. Artıq nisbətən gənc olan ABŞ dövləti də erməni məsələsinə maraq göstərir onu bu və ya digər dərəcədə dəstəkləyirdi.

Beləliklə, XVIII əsrdən Azərbaycan xalqının Avropa imperializminə və onun yerli əlaltısı ermənilərə qarşı qanlı mücadiləsi başlayır. Ermənilər bilavasitə Rusiyanın himayəsində, Fransa və İngiltərənin dəstəyi ilə Cənubi Qafqazı yalnız Azərbaycan türklərindən yox, ümumiyyətlə bütün müsəlmanlardan təmizləməyə cəhd göstərsələrdə buna nail ola bilmədilər. 1918-ci ildə Azərbaycan xalqı müstəqilliyinə nail olub, dövlətçiliyini bərpa edə bildi. Rusiya, İngiltərə, Fransa. ABŞ və digər güclü dövlətlərin təzyiqi nəticəsində Azərbaycan Cümhuriyyəti vaxtıylə Rusiya imperiyasının «Erməni əyaləti» adlandırdığı İrəvan vilayətinin 9 min km$^2$ ərazisini ermənilərə güzəşt etməyə məcbur oldu.

Rusiyada hakimiyyətə gəlib imperiyanı yenidən bərpa edən bolşeviklər ermənilərin yaxından iştirakı ilə Azərbaycan Cümhuriyyətini devirib Azərbaycanı yenidən işğal etməyə nail oldular. Ermənilərlə Bolşevik- Rus imperiyasının qurucusu V.İ.Lenin arasında razılaşmaya əsasən, Azərbaycanın İrəvan və Göyçə ilə yanaşı, Qarabağın Zəngəzur vilayəti ondan qoparılıb ermənilərə verildi və Azərbaycanın 29 min km$^2$ ərazisində Ermənistan dövləti yaradıldı. 1921-ci ildə Ermənistan Naxçıvana və Dağlıq Qarabağa iddia qaldırdı. 1920-ci ildə Azərbaycanın Ermənistanda nümayəndəsi Dövlətov təyin edilmişdir. 1921-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra erməni İ.Dövlətov Ermənistanda Azərbaycanın nümayəndəsi təyin edildi.

Tarix və onun problemləri, №3 2009

1921-ci ilin iyununda RK (b) P-nin Qafqaz bürosunun iclasında Qarabağın Azərbaycanın tərkibində qalmasına Nərimanov, Maxaradze səs vermişdir, Orconikidze, Myasnikov, Kirov əleyhinə səs vermişdir.

1921-ci ilin iyulun 5-də qərara alındı ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibinə verilsin. 1923-cü ildə Dağlıq Qarabağa Muxtar vilayət statusu verildi.

1921-ci il sentyabrda Kars müqaviləsinin qərarına əsasən Naxçıvan Muxtar Respublika kimi Azərbaycana verildi. Mərkəzi hakimiyyətin gücü ilə Zəncəzur, Göyçə və digər Qərbi Azərbaycan əraziləri hesabına Ermənistan Respublikası yaradıldı. Sovet hakimiyyəti illərində Azərbaycan torpaqları hissə-hissə Ermənistana verildi. 1987-ci ildə Parisdə erməni akademiki A.Aqanbekyan «Humanite» qəzetinə verdiyi məlumatda Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsi iddiası qaldırıldı. 1985-ci ildə Afinada Daşnaqsütun partiyasının XXIII qurultayında «Böyük Ermənistan» yaratmaq ideyası yenidən irəli sürüldü. Dağlıq Qarabağda seperatist «Krunk» və «Miatsum» təşkilatları açıq fəaliyyətə başladılar. Mərkəzi hakimiyyətə və xarici erməni diasporuna arxalanan erməni şovinistləri Ermənistanda və Dağlıq Qarabağda yaşayan azərbaycanlıları silah gücünə qovdular. 1989-cu il dekabrın 30-da Ermənistan SSR Ali Soveti «Ermənistan SSR-i və Dağlıq Qarabağı birləşdirmək haqqında» qərar qəbul etdi. Ermənistanın silahlı qüvvələri Dağlıq Qarabağı və altı rayonu işğal altında saxlayır. Azərbaycan dövlətinin siyasi strategiyasında ərazi bütövlüyünün bərpa edilməsi əsas yer tutur.

Ermənistan Azərbaycana qarşı yalnız hərbi vasitələrdən deyil, həm də məkrli təbliğat vasitələrindən istifadə edir. Mərkəzi hakimiyyətin əli ilə törədilən Sumqayıt və Bakı hadisələrini erməni diasporu Azərbaycanın əleyhinə istifadə edərək, «yazıq ermənilər» imicini yaratdılar. Azərbaycan informasiya blokadasına alındı. 1992-ci il fevral ayında Xocalı soyqırımı baş verəndə Qərb informasiyası susmağa üstünlük verdi. 90-cı illərin ortalarından sonra Azərbaycan informasiya blokadasından çıxdı. Erməni terrorçularının insanlığa qarşı çevrilmiş hərəkətləri dünyada yayıldı. Dağlıq Qarabağın ərazisini işğal edən ermənilər indi Naxçıvana göz dikirlər.

Münaqişənin digər amili iqtisadi amildir. Azərbaycan güclü enerji resurslarına malikdir. Neft strategiyası ölkəni Qərblə daha çox bağlayır. İpək yolunun bərpasında Azərbaycan mərkəz rolunu oynayır.

Qərbin bəzi qüvvələri Azərbaycana təzyiq göstərirlər ki, Ermənistanla iqtisadi əməkdaşlıq Qarabağ probleminin həllinə kömək edə bilər.

Azərbaycanın isə tələbi belədir: işğal edilmiş ərazilər boşaldıqdan sonra iqtisadi əməkdaşlıqdan söhbət gedə bilər.

Ermənilər xarici diasporun gücündən istifadə edirlər. ABŞ və Fransada erməni diasporu daha güclüdür. Rusiya isə Cənubi Qafqazda mövqeyini qorumaq üçün Ermənistanın coğrafi məkanından istifadə edir. Rusiya Ermənistanda hərbi qüvvə saxlamandan əlavə erməni qoşunlarını müasir silahla təchiz edir. Ermənistanın silahlandırılması Qafqaz siyasi regionunda qeyri- stabil vəziyyət yaradır. Professor A.Daşdəmirov erməni- azərbaycanlı münaqişəsindən bəhs edərək yazmışdı: «Cənubi Qafqazda etniksiyasi qarşıdurmanın məqsədi zor gücünə Azərbaycanın hesabına Ermənistanın «həyat mənafeyi»nin təmin edilməsidir. Geosiyasi qarşıdurma strategiyası Azərbaycan Respublikasının varlığına qarşı çevrilir» [5]. Dağlıq Qarabağın işğal edilməsi Azərbaycan Respublikası üçün milli təhlükədir. Məhsuldar torpağın, enerji, kommunikasiya resurslarının itirilməsi, kütləvi qaçqınlıq əhalinin yaşayış səviyyəsini aşağı salır.

Ermənilərin tarixi vətən torpağı olmadığına görə Kaliforniyada, Fransada, Rusiyanın əlverişli ərazilərində yaşamağa üstünlük verirlər. Xarici ölkələrdə daşnak ideologiyası erməni diasporunu birləşdirir. Daşnak ideologiyasının əsas strategiyası türk millətinə qarşı çevrilmişdir.

*ƏDƏBİYYAT:*
1.Mahmudov V. «Azərbaycan diplomatiyası»
2.«Respublika» qəzeti. Aprel 1998
3.Mustafayev B. «Azərbaycan dövlətçiliyi» B- 1995
4.Süleymanov M. «Azərbaycan ordusu 1918-1920» B- 1998
5.Гаджиев К.С. «О природе конфиликтов и войн в современном мире» /Вопросы философии. №6. 1996

**АББАС ОРУДЖАЛИЕВ**

**КАРАБАХСКИЙ КОНФЛИКТ КАК ГЕОПОЛИТИЧЕСКАЯ ПРОБЛЕМА**

Начиная с 1988-го года Карабахские события в общественно политической мысли Азербайджана и в мировой общественности характеризируется как «надуманная проблема», как «этнический конфликт». Но исторические исследования показали что Карабахские события боли не надуманная проблема. Карабахский конфликт результать противостаяния запада и востока. Геополитической барьбы империалистических держав мира, который продолжается бой уже многие годы в открытой и в скрытой форме. Армяне не являются лишь средством в этом процессе.

**ABBAS ORUJALIEV**

**GARABAGH CONFLİCT AS A GEOPOLİTİCAL PROBLEM**

Since 1988 Garabagh conflict has beingexplained in socio- political sphere of Azerbacan as « a fabricated problem», «an ethnic conflict» and being brought to the world public s notice in such a way. But historical investigations shouthat Garabaglı event isnt a fabricated problem, conflict, if is an event arose by the East- rvest, as vell as the world imperialist countries aggressive and geopolitical fight. İt has being continued for hundred yıars openly and secrefly. The Armenians are an instrument being used in this process.

***Rəyçilər: t.e.d.A.Baxşəliyev, t.e.d.İ.X.Zeynalov.***
***ARPUDU-nun 02 aprel 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №10).***